

# DÜNYA OPERASININ YARANMASI

**1907- ci il Azərbaycanın və Şərqin ilk operasının birinci notları yazılan zaman,artıq dünya operası özünün 300 yaşını qeyd edirdi. Üç yüz il uzun bir yol keçmiş dünya operasının yaranması əslində cox maraqlı bir tarixçə ilə yadda qalıb.**

Tanınmış rus rejissoru B.A.Pokrovski opera sənətinin yaranmasını Kolumbun Amerikanı təsadüfən kəşf etməsi ilə müqayisə edir. Məlumdur ki, Kolumb Hindistana daha sərfəli yol axtararkən təsadüfən özü də bilmədən Amerikanı kəşf etmişdir. Opera sənətinin yaranması da məhz bu kəşfə bənzəyir. Yəni ilk opera yaradıcıları bu janrın yaranmasını qarşılarına məqsəd kimi qoymamışlar. Əslində yeni bir şey yaratmaq yox, tam əksinə, onların fikrincə uzaq kecmişdə olanı bərpa etməyi qarşılarına məqsəd qoymuşlar.

XIV- XVI əsr İntibah dövrü İtaliyada özünü daha parlaq büruzə vermişdir. Məhz bu yüzillikdə İtaliya mədəni aləmdə xeyli irəli getmiş və dünya sivilizasiyasının minillik tarixinə yeni şərəfli səhifələr yazmışdır.

XVl əsr İntibah dövrünün zirvəsi(eyni zamanda Yüksək İntibah dövrü) adlanır və bu dövrdə Mikelanjelo, Rafael, Leonardo da Vinçi kimi məşhur rəssam və heykəltəraşlar yetişmişdir.

İntibah dövrünün yeni istedadlı nəsli olan rəssamlar, memarlar, musiqiçilər,ədəbiyyat nümayəndələri, rəngkarlıq, poeziya, teatr, musiqi sahəsində səviyyəli dərnəklər təşkil edirdilər. Onlar daha yeni, dərin, incə və insani incsənət arzulayırdılar.

Belə dərnəklərdən biri XVI əsrin sonunda İtaliyanın şərəfli tarixi olan Florensiya şəhərində yaranmışdır. Qeyd etmək yerinə düşərdi ki, "İlahi komediya" əsərinin müəllifi məşhur Dante ömrünün bir hissəsini bu şəhərdə yaşamışdır. Eyni zamanda Petrarkın və Bokkaçonın yaradıcılıqları Florensiya şəhəri ilə sıx bagļıdır. Florensiyada yaranmış bu dərnək "Kamerat"(kamera sözündən götürülüb otaq, zal mənasındadır) adlanırdı. Bu dərnəyin üzvləri olan gənclər Covanni Bardinin varlı evində yıgışıb antik teatr və onda olan musiqi ilə maraqlanırdılar. Onlar qəti əmin idilər ki, qədim teatr musiqili olub və eyni zamanda istər faciə, istərsə də komedik əsərlərdə xor iştirak edib. Lakin dərnək üzvləri bir suala dəqiq cavab axtarırdılar ki, antik teatrda musiqi necə olub, həmin tamaşalarda musiqidən necə istifadə ediblər. Onlar bir fikirdə yekdil idilər ki, həmin musiqi indi onların ətrafında eşidilən musiqidən fərqlənirdi. Ona görə yox ki,müasir musiqi zəif idi, əksinə qeyd etmək yerinə düşərdi ki, XVI əsrin sonlarında dəyər etibarı ilə yüksək və estetik zövq verən kifayət qədər musiqi yaranmışdır ki,məhz bu musiqilər birbaşa teatr ilə bagļı idi. Lakin dərnək üzvlərinə elə gəlirdi ki,qədim teatr musiqisinin sözlə əlaqəsi onların hazırda eşitdiklərindən tamamilə fərqlənir. Müasir polifonik yəni birbirindən asılı olmayan bir neçə səsin səslənməsi xoş həyəcanla qəbul olunurdu, lakin sözlərin aydın eşidilməsi və başa düşülməsi çətinləşirdi.

O vaxt bu dini musiqilər üçün qəbul oluna bilərdi, çünki qulaq asanlar üçün sözlər əsasən tanış idi və əslində həmin musiqilərin təyinatı da başqa idi. Nəzərə alsaq ki, həmin dövrdə əsasən geniş və kütləvi bayram təntənələri keçirilirdi, burda baş verənləri isə eşitməklə yox görməklə aydınlaşdırmaq olardı. Başqa bir məsələ də var ki, qədim pyeslər dərin və çətin mətnlə zəngin idi. Bu cür pyeslərə polifonik musiqinin yazılması əlbəttə mümkün deyildi. Məhz bu zaman kameratlar qədim teatr musiqisinin bərpası ilə məşğul olduqları halda bir neçə novator addım atdılar. Onlardan biri məşhur fizik Qalileyin atası Vinçenso Qaliley çox səsli ifanın bir səslə əvəzlənməsini və musiqi aləti ilə müşayiət olunmasını təklif edir. İndi biz buna solo deyirik. Solo ifa zamanı musiqinin özünəməxsus olan bütün qiymətli keyfiyyətləri, yəni sözlərin poetik gücü, aydın eşidilməsi, emosional təsiri, ruhun oxşanması, xüsusi incəliyi, əsasən qabarıq və başadüşülən olurdu. Məşhur italyan şairi Torkvato Tassonun dediyi sözlər tam yerinə düşürdü: "musiqi-zəriflik və ruhun poeziyasıdır". Bir səs üçün melodiya, o vaxt üçün yeni bir musiqi və ya yeni musiqi stili hesab olunurdu.

Recitativlərin meydana gəlməsi Florensiya kameratlarının antik teatr tamaşalarını bərpa etmək arzularını sanki mümkün edirdi.

Bu cür cəhdlərdən biri bəstəkar Jakop Perinin şair Ottovio Rinuccinin sözlərinə yazdığı və 1597-1598-ci illərdə Florensiyanın varlı evlərindən birində qoyulmuş "Dəfnə" əsəri idi. Bəstəkar özü həmin əsərdə Apollon rolunu oynamışdır. O vaxtkı, müəlliflərə nümunə qədim teatr olduğu üçün süjet xətti antik ədəbi nümunələrdən götürülmüşdür.

Yeni stildə ikinci əsər 1600-cü ildə Peppi və Fyulio Keccinin "Rinuccin" librettosuna yazdıqları "Evridika" əsəri də geniş rezonans doğurdu.

Drama yazılmış musiqi (o vaxt bu əsərlər belə adlanırdı) bütün keyfiyyətləri ilə opera sənətinin əsas keyfiyyətlərindən uzaq idi. Lakin irəliyə doğru inkişaf gedirdi və xeyli sayda yeni adlar meydana çıxırdı. Bu irəliyə doğru uğurlu addım atan bəstəkarlardan biri, 1567-1643-cü illərdə yaşayıb yaratmış Kladio Monteverdi olmuşdur.O, florensiyalı kameratların ilk musiqiyə yazılmış nümunələri ilə tanış olmuş və onun imkanlarını geniş qiymətləndirmişdir. Kameratların işini davam etdirərək o, 1607-ci ildə özünün "Orfey" əsərini yazmışdır. Məhz opera sənətinin yaranması həmin ildən hesablanır. Bu əsər 1608-ci ildə bir sıra saray teatrlarında səhnələşdirilmişdir.

İlk dəfə "Orfey" əsərində dramatik gərginlik göründü, təzadlar prinsipi, xoşbəxtliyin bədbəxtliyi və ya bədbəxtliyin xoşbəxtliyi əvəzləməsi, antik teatrda daha çox istifadə edilən təzadlar Monteverdidən sonra opera sənətinin əsas amilinə çevrildi.

Monteverdi yazırdı: "Mən anladım ki, təzadlar bizim qəlbimizə başqa şeylərdən daha çox təsir edir- musiqinin əsas məqsədlərindən biri isə qəlbimizi həyəcanlandırmaqdan ibarətdir." Məhz bu əsərdə ilk dəfə duet forması meydana gəldi. Eyni zamanda uvertyura(fransızca-ovverture, ovver-açmaq) ilk dəfə "Orfey" əsərində olmuşdur. Monteverdi bu əsərdə həmin dövrdə olan butun musiqi alətlərindən istifadə etmişdir. Peppi və Kaccini yeni musiqili teatrın formasını tapdılar. Lakin Monteverdi bu janrı yeni pilləyə qaldırdı, əsas keyfiyyətlərini tapıb, onu inkişaf etdirdi.

Opera sənətinin yeni dövrü yenə də, K.Monteverdi ilə bağlıdır. Opera sənəti artıq var idi, sevilirdi, lakin bu tamaşalar ancaq xüsusi adamlar üçün saraylarda və ya şəxsi evlərdə göstərilirdi. Əlbəttə bu cür opera sənətinin məhv olma təhlükəsi ola bilərdi.

1613-cü ildə Monteverdi Venesiyaya gəlir, orkestr və kapellanın rəhbəri olur. Burda o bir- birinin ardınca yeni operalar yazır, təəssüf ki, həmin əsərlər bizim dövrə qədər gəlib çatmamışdır.

Məhz 1937-ci ildə dünyada ilk dəfə olaraq venesiyada opera teatrı açılır. 1642- ci ildə teatr səhnəsində Monteverdi yaradıcılığının zirvəsi sayılan " Pompeyin tac qoyma mərasimi " əsəri göstərilir. Həmin əsər bizim dövrə qədər gəlib çatmışdır.

XVIII əsrin ortalarında opera incəsənət növləri arasında öz yerini təsdiqlədi. Venesiyada opera sənətinin çiçəklənmə dövrü başladı, əsrin sonunda 150 minlik şəhərdə 16 opera teatrı tikilmiş və bu teatrlarda 300- ə yaxın opera əsəri səhnələşdirilmişdir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, məhz Venesiyada 1639-cu ildə ilk dəfə olaraq " opera " sözü meydana gəldi. Bu vaxta qədər isə yeni janr müxtəlif cür adlanırdı; musiqili nağıl, mahnılı drama, dramaya yazılmış musiqi, musiqinin köməyi ilə drama və s. Bizim indi qulaqlarımızın öyrəşdiyi opera sözünün isə qəribə də olsa nə musiqi, nə də teatr ilə heç bir əlaqəsi yoxdur. Opera sözü italyanca tərcümədə əmək, iş,qoşma,düzəltmə sözü mənasını verir. İlk əvvəllər musiqili opera, sonralar isə sadəcə opera adlanmağa başladı.

XII əsrin ortalarında opera İtaliyanın başqa şəhərlərində də qoyulmağa başladı. Ölkənin cənubunda isə Neapol şəhərində opera sənətinin gələcək inkişafına təkan verən xüsusi opera məktəbi yaranır. XVII əsrin sonunda Neapolda opera iki sərbəst qola ayrıldı. Bunlardan biri ciddi opera-opera seriya, digəri isə komik opera- opera buff adlanırdı. Opera - seriya mifik və tarixi qəhrəmanlıq süjeti, təmtəraqlı quruluşu ilə seçilirdi. "Belkanto"- gözəl ifa məktəbi məhz öz inkişafıın burda tapmışdır. Onun görkəmli nümayəndələrindən biri 115 opera müəllifi olan Aleksandr Skarlatti (1660- 1725) idi.Komik operalar ilk növbədə ciddi operalara intermediya səhnəcik növündə təşəkkül tapmışdır. Məhz həmin səhnəciklər tezliklə kütləvi populyarlıq qazanmağa başladı. Bu isə ona gətirib çıxartdı ki,o zaman İtaliyada cox populyar olan dram teatrlarının məişət komediya pyeslərinə söykənən sərbəst məişət növlü opera tamaşaları meydana gəlməyə başladı. Buff operalar canlılığı, impovizəyə və zamanın nəbzini tutmağa meylli olması ilə fərqlənirdi. Burda daha cox çevik, dinamik ansambl olmağı məqsədyönlüdür.

Bu dövrdə artıq opera sənəti İtaliyanin sərhədlərindən kənara çıxmağa başladı. İtaliya opera truppası Avropanın müxtəlif ölkələrinə, o cümlədən Fransa, İngiltərə Almaniyaya qastrol səfərləri edir. Operanın şöhrəti getdikcə artır və demək olar ki, XVIII əsrdə opera sənəti İtaliya xalqının milli dəyərinə çevrilir. İtaliya opera sənəti getdikcə daha cox yayılmağa başlayır. R.Rollanın sözləri ilə desək "İtaliya operanı fəth etməklə, dünyanı fəth etdi. "XVII əsrin ortalarında müxtəlif ölkələrdə milli opera məktəbləri təşkil olunmağa başladı. Hər bir ölkənin milli musiqili teatr ənənələrinə əsaslanan özünəməxsus xüsusiyyətləri olan milli operalar yaranır. XVII əsrin 70-ci illərində Fransanın paytaxtında saray teatrı olan "Kral musiqi akademiyası"açıldı. İlk dəfə olaraq burda italyan mənşəli Jan Batist Lyüllinin lirik tragediyası qoyulmuşdur. İngilis operasının əsasını isə Henri Persell(1659- 1695) özünün 1689- cu ildə mifik süjet əsasında yazdığı milli xarakterli " Didano və Eney" əsəri ilə qoymuşdur. Hal-hazırkı dövrdə həmin əsər opera səhnəsində göstərilir.

Almaniyada isə ilk milli opera tamaşası 1678-ci ildə Hamburq şəhərində qoyulmuşdur. Lakin tezliklə qadağa olunmuş, yalnız XVIII əsrdə "Zinqşpil" milli alman komik opera formasında inkişaf etməyə başlamışdır (Almanca zinqşpil. Zingen-oxumaq və Spiel-oyun deməkdir). Bütövlükdə isə XVII əsrdə artıq opera sənəti Florensiya kameratlarının antik teatr tamaşalarının bərpasına can atmaq cəhdlərindən xeyli uzaqlaşaraq, özünün təşəkkülünü tapmiş, inkişaf edərək bir janr kimi təsdiqlənmişdir.

Opera sənətində xüsusi yeri olan Kristof Villivald Qlyuk(1756- 1787), V.A. Motsart (1756- 1791) XVIII əsrdə özlərinin istedadlı yaradıcılıqları ilə İtaliya operasından bir qol kimi ayrıla bilmişdilər.

Yalnız XIX əsrdə İtaliya operasının yeni görkəmli nümayəndələri üzə çıxmağa başladı.C.Rossini(1792-1868), H.Donissetdi (1797-1848), C.Verdi(1813-1901),V.Bellini(18011835), P.Maskani (18631945), R.Leonkavallo (1857- 1919),C.Bize(1838-1875) kimi opera sənətçiləri üzə çıxdı.

XIX əsrin 30-cu illərindən isə milli rus operası formalaşmağa başladı.

Rus opera məktəbinin əsasını Mixayıl İvanoviç Qlinka (1804-852) qoymuşdur. Qlinkaya qədər A.N.Verstovskiy (1799-1862) kimi opera müəllifləri olmuşdur, lakin onlar milli rus operasını yarada bilməmişlər.

Opera sənəti artıq Şərqi Avropa ölkələrində yayılmağa başladı.Polşa xalq musiqisini gözəl bilən ,xalqın adət-ənənəsinə hörmətlə yanaşan və bütün bunları özünün "Qolka"operasında əks etdirən S. Manyuşka(1819-1872)Polşa klassik operasının əsasını qoymuşdur.

"Satılmış gəlin" (1866) komik operası ilə B.Smetana (1824-1884) çex milli operasının əsasını qoymuşdur. B.Bartok (1881-1945), Z.Koday (1882-1967) macar, G.Eneski (1881-1955) "Edip"operası ilə Rumın, P.Vladiqerova (1899-1978) "Çar Kaloyan"əsəri ilə bolqar və başqaları Şərqi Avropa ölkələrinin ilk opera nümayəndələri idilər.

Azərbaycanda Üzeyir Hacıbəyov Məhəmməd Füzulinin "Leyli və Məcnun" əsərinə(librettosu özünə məxsusdur) yazdığı eyni adlı operası ilə Zaqafqaziyada, müsəlman Şərqində opera sənətinin əsasını qoymuş oldu.

"Leyli və Məcnun" operası eyni zamanda dünyada ilk mugam operası olaraq da tarixə yazıldı.Yüz ildən artıq Opera və Balet teatrının repertuarını bəzəyən "Leyli və Məcnun" operası həm Azərbaycanda,həm də başqa teatr səhnələrində dəfələrlə səhnəyə qoyulmuş və hər zaman böyük həyəcanla qarşılanaraq dərin sevgi qazanmışdır."Leyli və Məcnun" operasının davamı olaraq Azərbaycanda daha möhtəşəm klassik musiqi nümunələri yaranmış və bugün də yaranmaqdadır.

● **Hafiz QULİYEV,**
***opera və balet teatrının baş rejissoru,***
***respublikanın əməkdar incəsənət xadimi***

## Ədəbiyyat

1. Pokrovskiy B.A. "Opera haqqında söhbət" Moskva- 1987.
2. Akulov E.A. "Opera musiqisi və səhnə yaradıcılığı"Moskva- 1982.
3. Sabinina M.D. "Xarici opera" Moskva-1979.
4. Asafyev B.F. Əsərləri, 2 C Moskva 1954.

**РЕЗЮМЕ**

В этой статье рассматриваются вопросы возникновение и развития мировой оперы. Кроме того показана создание первой оперы, появление оперных композиторов и распространение оперного искусства в мире.

**SUMMARY**

In this article, have been shown arising and formation of the world opera. At the same time, here have been written about arising of the first opera, spreading in first opera composers and operatic art in the world.

18403

M.F.Axundov adına
Azərb... Milli
Kitabxanası